AZƏRİNŞAAT

PRES RELİZ

"Azərinşaatservis" MMC
Azərbaycan, Bakı, AZ 1108, Dərnəgül qəs., 11-ci Dağlıq k., 3105
**Tel.:** (+994 12) 447 70 03 (04) **Faks:** (+994 12) 565 04 54
www.azerinsaat.com

# "Azərinşaatservis" MMC "Bakı Dairəvi I" avtomobil yolunun torpaq yatağının hazırlanmasını başa çatdırıb

*"Azərinşaatservis" MMC*
*Bakı, Azərbaycan*
*2008/05/19*

"Azərinşaatservis" MMC 2006-cı ilin oktyabr ayından icrasına başladığı "Bakı Dairəvi I" avtomobil yolunun torpaq yatağının hazrılanması işlərini başa çatdırıb.

Biləcəri yoxuşu ilə Lökbatan dairəsini birləşdirəcək bu yolun eni 30 metrədək, uzunluğu isə 21,5 km-dir. Dairəvi yol Bakı-Rusiya sərhədi, Bakı-Gürcüstan sərhədi və Bakı-İran sərhədi avtomagistrallarını birləşdirəcək. Ümumi dəyəri 76 723 715,27 ABŞ dolları olan bu layihəni Ərəb İqtisadi İnkişaf Üzrə Küveyt fondu və Abu Dabi fondu maliyyələşdirir.

Şirkətin Marketinq meneceri İlkin İmaməliyev: "Artıq yolun üzərindəki kommunikasiyaların yerləşdirilməsi məsələləri öz həllini tapıb. Ümumilikdə isə 2010-cu ilin sonlarına qədər yolun tam təhvil verilməsi nəzərdə tutulub."

*2003-cü ildə qurulan "Azərinşaatservis" MMC Azərbaycanda və Qafqaz regionunda yüksək keyfiyyətli xidmətlər göstərməklə yol və dəmiryolu tikintisi sahəsində liderlik iddiasında olan bir şirkətdir. Şirkət əsas fəaliyyət dairəsi olan avtomobil və dəmiryolu tikintisində A-dan Z-yə bütün növ xidmətləri öz imkanları hesabına həyata keçirir.*

***Mətbuat üçün əlaqəli şəxs:***
**Kənan KƏRİMLİ,** İctimaiyyətlə Əlaqələr və Mətbuat Meneceri
**Tel.:** (+994 12) 447 70 03 (04)
**Mob.:** (+994 55) 208 20 87, (+994 50) 255 38 86
**E-mail**: k.karimli@azerinsaat.com
**www.azerinsaat.com**